2003–2017 **Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi**



# Yeni islahatlar kursu Abşeronun sosial-iqtisadi inkişafına sürətli təkan verib

**İlk dəfə 2003-cü ilin prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq prezidentlik missiyasına başlayan cənab İlham Əliyev ötən 14 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını layiqincə davam etdirib. Ona görə 14 il müstəqil Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üçün onilliklərə bərabər inkişaf dövrüdür, desək yanılmarıq. Bu illərdə Azərbaycanın nail olduğu ən böyük uğurlardan biri ölkəmizin bütün regionlarının inkişaf yoluna çıxarılması, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi, nəinki şəhər və qəsəbələrin, hətta kəndlərin simasının dəyişməsidir. Mübaliğəsiz demək olar ki,14 ildə bütün Azərbaycan yenidən qurulub.**



## Ölkədəki inkişaf Abşeronun simasında daha aydın görünür

Respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ötən 14 ildə ölkənin bütün bölgələri kimi Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ölkənin hər yerində yaşanan inkişaf Abşeron rayonunun simasında aydın müşahidə olunur. Son illərin real mənzərəsi Abşeronun ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir. Bu inkişaf Abşeronun qüruru olduğu qədər, ölkəmizdən kənarda Azərbaycanın gözəl tanıtımıdır. Ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illərdə rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və qovşaqları, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Abşeronda həyata keçirilmiş çoxşaxəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlıdır. Rayon rəhbərliyi üzərinə düşən məsuliyyəti düzgün dəyərləndirməklə fəaliyyətini dövlət başçısı İlham Əliyevin yürütdüyü çevik və səmərəli inkişaf strategiyasının mahiyyətinə uyğun qurmağa, idarəetmədə mütərəqqi prinsipləri tətbiq etməyə, qarşıda duran vəzifələri dəqiq müəyyənləşdirərək vaxtında icrasına nail olmağa çalışır. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirir ki, Prezident İlham Əliyevin apardığı siyasətin mahiyyətinə uyğun olaraq rayonda qarşıya qoyulmuş başlıca vəzifələr əhalinin sosial rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha sürətlə və keyfiyyətlə aparılması, təhsil-səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır.

Qazanılan uğurlar həm də ondan xəbər verir ki, Abşeron rayonunda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları uğurla icra olunur. Məsələn, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş Abşeronun qəsəbə və kəndlərində qaz kəmərlərinin yenidən qurulması, yeni yaşayış massivlərinin qazlaşdırılması, daşıyıcı qaz kəmərlərinin polietilen borularla tikilməsi, su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması, əkin və həyətyanı sahələrin su təminatının yaxşılaşdırılması məqsədi ilə boru xətlərinin yenidən qurulması kimi vəzifələr uğurla yerinə yetirilmişdir.

Hazırda icra olunan regional dövlət proqramında da Abşeronla bağlı mühüm bəndlər yer almışdır. Belə ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən Abşeron rayonunda kimya, yeyinti və yüngül sənayenin, heyvandarlıq, zeytunçuluq, zəfərançılıq, üzümçülük və istixana şəratində tərəvəzçilik sahələrinin inkişafının dəstəklənməsi, kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi kimi vəzifələr qarşıya qoyulub. Proqama əsasən, yerli əhəmiyyətli avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri, şəhərdaxili və qəsəbədaxili yolların asfaltlaşdırılması davam etdirilib. Həmçinin rayonda elektrik enerjisi, su və istilik təchizatının, rabitə, meliorasiya və irriqasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilb.

## 6 ildir dövlət büdcəsindən dotasiya almayan rayon

Yerləşdiyi bölgənin lideri statusunu layiqincə daşıyan Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək istiqamətində qarşısına qoyduğu hədəfə doğru inamla irəliləyir, hər ötən dövrü bütün sahələrdə uğurlarla başa vurur. Bu baxımdan 2017-ci ilin geridə qoyduğumuz dövrü də respublikamız üçün əlamətdardır. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin oktyabrın 9-da keçirilən iclasında bu barədə geniş müzakirələr aparıldı, ölkə rəhbəri vəziyyəti geniş təhlil edərək qarşıda duran vəzifələri müəyyənləşdirdi. Qeyd olundu ki, 2017-ci ilin ötən 9 ayında ölkədə ümumi makroiqtisadi sabitlik qorunub, iqtisadiyyatın inkişafı təmin edilib, xüsusən qeyri-neft sektorunda yüksəliş qeydə alınıb, əhalinin sosial rifahı daha da yaxşılaşıb.

Respublikamızda həyata keçirilən inkişaf kursu ötən 9 ayda Abşeron rayonunda bütün sahələrin davamlı inkişafını təmin edərək müsbət nəticələrin əldə edilməsini şərtləndirib. Oktyabrın 17-də Abşeron Rayon İcra Hakimiyyətində keçirilən hesabat yığıncağında bu barədə ətraflı məlumat verildi. Yığıncağı giriş sözü ilə açan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirdi ki, 2017-ci ilin ötən dövrü ərzində rayonda qarşıya qoyulmuş bütün tapşırıqlar vaxtında və keyfiyyətlə icra edilib və cari ilin 9 ayı Abşeron rayonu üçün uğurlu və yaddaqalan olub.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısının müavini İlham Quluyev bildirdi ki, hesabat dövründə rayonda abadlıq-quruculuq, əhalinin elektrik enerjisi, içməli su, təbii qazla təchizatı, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər davam etdirilib. Həmçinin sahibkarlığın inkişafı, əhalinin maddi rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi, onların sosial problemlərinin həlli məsələləri rayon İcra hakimiyyəti başçısı aparatının daim diqqət mərkəzində saxlanılıb. Məhz sahibkarlıq fəaliyyəti üçün yaradılmış əlverişli şəraitin nəticəsi olaraq rayonda 2017-ci ilin ötən müddəti ərzində 2735 yeni iş yeri açılıb. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon ərazisində fəaliyyət göstərən sahibkarlara 16 layihə üzrə 11 milyon 439 min manat güzəştli kredit verilib ki, onların icrası çərçivəsində daha 189 yeni iş yerinin açılması nəzərdə tutulur.

Ölkəmizdə son illərdə həyata keçirilən yeni iqtisadi islahatlar Abşeronda da öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, rayon sahibkarları tərəfindən ixrac yönümlü məhsul istehsalına diqqət artıb. Bunun nəticəsi olaraq Abşeronda fəaliyyət göstərən 34 şirkət tərəfindən istehsal olunan 328 adda məhsulun xarici bazarlara çıxarılması üçün "Azexport.az" saytında müvafiq məlumatlar yerləşdirilib.

Ötən illərdə olduğu kimi, 2017-ci ildə də rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi artıb. Məsələn, bu il 774 hektar taxıl sahəsindən 1164 ton, 664 hektar tərəvəz sahəsindən isə 50 min 227 ton məhsul əldə olunub. İqtisadi potensiala uyğun olaraq sahibkarlar üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, bu il rayonun inzibati və təhkim olunmuş kənd təsərrüfatı torpaqlarında 10 sahibkar tərəfindən 45,3 hektar sahədə müasir tipli istixanalar tikilib istifadəyə verilib. Qəsəbə və kəndlərdə əhali və fermer təsərrüfatlarında qaramalın sayı 21 min 732 başa, davarın sayı 107 min 846 başa, quşların sayı isə 992 min başa çatıb. Hesabat dövrü ərzində 1822 ton ət, 31230 ton süd istehsal olunub, yumurta istehsalı isə artaraq 148 milyon ədədə çatıb.

Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq rayonun kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağlarının sahələrinin genişləndirilməsi istiqamətində işlər həyata keçirilir. Hazırda Aşağı Güzdək ərazisində 330 hektar sahədə zeytun əkilməsi ilə bağlı işlər sürətlə davam etdirilir. Artıq 22 min ədəd zeytun tingi əkilib. Eyni zamanda, keçmiş 3 saylı zeytun sovxozunun ərazisində yeni badam bağlarının salınması məqsədilə 210 hektar torpaq ayrılmış və bunun artıq 80 hektarı salınıb.

Ölkə rəhbərliyinin qarşıya qoyduğu əsas vəzifələrdən biri rayon və şəhərlərə ayrılan dotasiyaların azaldılmasıdır. Bu mənada Abşeronun iqtisadi sferada ən mühüm uğurlarından biri öz büdcəsini yerli gəlirlər hesabına formalaşdırmasıdır. Artıq 6 ildir ki, Abşeron dövlət büdcəsindən dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. Bu il rayonun yerli xərclərindən artıq 23,5 milyon manatın dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulub. Hesabat dövründə Abşeronun büdcəsinin yerli gəlirlər proqnozu 24,3 milyon manata qarşı 27,1 milyon manat və ya 111 faiz yerinə yetirilib. Nəticədə büdcəyə nəzərdə tutulduğundan 2,8 milyon manat əlavə vəsait daxil olub. Bütövlükdə, 2017-ci ilin 9 ayı ərzində rayonun yerli büdcəsinin icrası investisiya xərcləri də nəzərə alınmaqla 10,5 milyon manat proqnoza qarşı 8,3 milyon manat və ya 79 faiz icra olunub.

Rayonda sosial məsələlər də diqqət mərkəzindədir. Xüsusən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən məcburi köçkünlərin problemlərinə həsr edilmiş müşavirənin nəticəsi olaraq rayon ərazisində məcburi köçkünlərin mənzillə təminatı sahəsində xeyli iş görülüb. Mehriban xanım Əliyevanın bu il iki dəfə Abşeron rayonu ərazisində inşa olunmuş 414 ailəlik 6 çoxmənzilli yaşayış binasının açılışında iştirakı məcburi köçkünlərə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

## Abadlıq və quruculuq bütün rayon ərazisini əhatə edir

2017-ci ilin ötən dövrü ərzində rayonun daxili imkanları hesabına Xırdalan şəhərinin Şəhriyar, Lütfi Zadə, Masazır kəndinin İsmət Qayıbov, Mirvari Dilbazi, Mehdi Hüseyn, Digah qəsəbəsinin Xaqani, Xətai, Bakıxanov, Hökməli qəsəbəsinin Ələğa Vahid, Qobu qəsəbəsinin Səməd Vurğun, Novxanı kəndinin Salatın Əsgərova, Teymur Əliyev, Allahverdi Bağırov, Mehdi Hüseynzadə, Osman Sarıvəlli, Vəli Məmmədov, Saray qəsəbəsinin Hacıbaba Səmədov və Azadlıq, Aşağı Güzdək qəsəbəsinin Həzi Cavadov, Mehdiabad qəsəbəsinin Zərdabi, Məmmədli kəndinin Nəsrəddin Tusi, Molla Pənah Vaqif küçələrində, eləcə də Hökməli-Qobu, Mehdiabad-Fatmai yollarının kənarlarında abadlaşdırma işləri görülüb, Mehdiabad qəsəbəsində və Məmmədli kəndində park yenidən qurularaq, istifadəyə verilib. Aşağı Güzdək qəsəbəsində şəhidlərin xatirəsinə abidə ucaldılaraq ətrafı abadlaşdırılıb.

Xırdalan şəhərində isə Qalubiyyə küçəsində baxımsız qalmış ərazi abadlaşdırılaraq, park salınıb. Eyni zamanda, şəhərin çoxmənzilli yaşayış binalarının həyətlərində qanunsuz zəbt edilmiş 205 daş və ya metal torla hasarlanmış ərazi sökülərək təmizlənib, 28-ci məhəllənin 12 yaşayış binasının ətrafında səkilər yenilənib, asfaltlanaraq nümunəvi məhəllələr yaradılıb. Həmçinin hesabat dövründə yaşayış binaları arasında mövcud olan 256 ədəd daş və ya metal konstruksiyalı qaraj sökülüb, bu işlər hazırda da davam etdirilir. Söküntü işləri aparılan bu ərazilərin sakinlərinin ümumi istifadəsinə verilməklə istirahətləri üçün müvafiq şəraitlərin yaradılması nəzərdə tutulur.

Yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 16440 kubmetr çınqıl tökülərək yayılıb, 109 min kvadratmetr sahə asfaltlanıb, 2510 paqonmetr səki daşı düzülüb, səkilərə 692 kvadratmetr tomet döşənib. Saray qəsəbəsində Vəli Axundov küçəsinin başlanğıcından yeni qəbiristanlığa gedən 2 km uzunluğunda yola, Masazır kəndində Hüseyn Arif və Mikayıl Müşfiq küçələrində 1600 metr uzunluğunda, Xırdalan şəhərində 5 nömrəli məktəbə gedən 600 metr uzunluğunda yola asfalt örtük döşənib. Məmmədli kəndində magistral yolun kənarı boyunca qrunt sularının axıdılması üçün 300 mm diametrli polietilen borularla 1000 metr uzunluğunda su ötürücüsü inşa olunub. Hazırda rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Heydər Əliyev prospektində səkilərin yenilənməsi, Ceyranbatan qəsəbəsinin Nizami, Gündüz Abdullayev, 20 Yanvar və Təbrik küçələrində yolların əsaslı təmiri işləri həyata keçirilir.

Ötən 9 ayda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq və ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına Mehdiabad-Digah-Məmmədli, Mehdiabad-Novxanı və Lökbatan-Qobu yollarının əsaslı yenidən qurulması işləri həyata keçirilib. Bakı-Quba və Bakı-Şamaxı magistral avtomobil yollarının Abşeron rayonundan keçən hissəsində 4 yerdə yerüstü keçid inşa edilərək istifadəyə verilmişdir.

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, çoxmənzilli yaşayış binalarının təmiri ilə bağlı Ceyranbatan qəsəbəsi ərazisində əsaslı təmirə ehtiyacı olan 12 çoxmənzilli yaşayış binası müəyyənləşdirilərək, artıq bu binaların hamısında təmir işləri başa çatdırılıb. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərində 26-cı məhəllə 9 saylı binanın və eyni zamanda, əlillər üçün Rəşid Behbudov küçəsində inşa edilmiş binanın dam örtüyü yenidən qurulub, 4 saylı Mənzil İstismar Sahəsi tərəfindən Xırdalan şəhəri Heydər Əliyev prospekti 5 ünvanda yerləşən bina təmir edilib. Eyni zamanda, güclü külək nəticəsində dam örtüyü uçaraq tamamilə yararsız hala düşmüş Xırdalan şəhəri, 26-cı məhəllə, 4 saylı binanın 1580 kvadratmetrlik dam örtüyü qısa müddət ərzində yenidən bərpa olunub. Həmçinin ətrafda zərər dəymiş fərdi yaşayış evlərinə 263 ədəd şifer kömək edilib. Hazırda 28-ci məhəllənin 17,18, 26 və 27 saylı binalarında və 25-ci məhəllənin 1 saylı binasında təmir işləri davam etdirilir.

## Kommunal infrastrukturun yenilənməsi prosesi daimidir

Bu ilin 9 ayında Abşeronda əhalinin sabit elektrik enerjisi ilə təminatı ilə bağlı yaşayış məntəqələrində 18 ədəd yeni transformator quraşdırılıb, 3 ədəd yanmış transformator bərpa edilib, 400 ədəd dayaq və 50 min metr naqil dəyişdirilib, yaşayış məntəqələrində 36.5 min metr uzunluqda "SİP" kabelləşməsi aparılıb. Qobu qəsəbəsində 110 kv-luq, Xırdalan şəhəri və Masazır kəndində isə 35 kv-luq yarımstansiyaların tikintisi, şəhər ərazisində 3 yarımstansiyanı birləşdirəcək dairəvi 35 kilovoltluq xəttin çəkilişi işləri başa çatıb, Xırdalan şəhərində əlavə olaraq 1 yeni 35 kv-luq yarımstansiyanın tikintisində son tamamlama işləri görülür. Qobu qəsəbəsində inşa olunmuş 110 kv-luq yarımstansiyaya Qobu və Hökməli qəsəbələrinin qoşulması təmin edilib. Hazırda Güzdək qəsəbəsinin də gələcəkdə bu yarımstansiyaya qoşulması üçün Qobu-Güzdək yolunun üzərində yeni transformator məntəqəsinin tikintisi işləri həyata keçirilir.

Bağlar elektrik şəbəkəsi tərəfindən Mehdiabad-Novxanı yolu üzərindəki 6 kv-luq hava veriliş xətləri kabel xətləri ilə əvəz olunub və 7 ədəd 3 girişli yeni kompleks transformator məntəqəsi quraşdırılıb. Digah qəsəbəsində elektrik enerjisi verilişinin "Binəqədineft"dən ayrılaraq Fatmai yarımstansiyasının üzərinə keçirilməsi nəticəsində qəsəbədə elektrik təchizatı ilə bağlı problemlər aradan qaldırılıb. Eyni zamanda, hazırda Hökməli, Aşağı Güzdək və Saray qəsəbələrində daxili xətt şəbəkəsinin yenidən qurulması işləri həyata keçirilir. Göradil, Fatmai, Mehdiabadda 6 minlik və 0.4 şəbəkənin yenidən qurulması işləri ilə bağlı sənədləşmə işləri aparılır.

2017-ci ilin 9 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 36,5 km uzunluqda yeni içməli su xətti, 21,4 km uzunluqda kanalizasiya xətti çəkilib. Digah qəsəbəsinin Xətai küçəsində 200 paqonmetr kanalizasiya xətti bərpa olunub. Məmmədli kəndində yeni yaşayış massivi ərazisində 500-dən çox evin və magistral yolun su basması ilə əlaqədar Nazirlər Kabinetinə, Fövqəladə Hallar Nazirliyinə edilmiş müraciətlərin nəticəsi olaraq 850 metr uzunluğunda 1000 mm diametrli xətt çəkilib və uzun müddət bununla bağlı mövcud olan problem tamamilə aradan qaldırılıb.

Hesabat dövründə Novxanı kəndində uzunluğu 13,2 km olan içməli su və 6.6 km uzunluğunda magistral kanalizasiya xəttinin çəkilişi işləri başa çatdırılaraq istifadəyə verilib. Eyni zamanda, Novxanı kəndi ərazisində yolun genişləndirilməsi ilə əlaqədar yeni kanalizasiya şəbəkəsi inşa edilib. Əhali tərəfindən pərakəndə çəkilən boru xətləri ləğv edilərək küçə və döngələrin başlanğıcında 100-ə yaxın kollektor quraşdırılıb. Bağlar sukanal idarəsi tərəfindən isə Saray-Novxanı 300 mm diametrli su boru xəttinin 300 paqonmetr, Mehdiabad-Fatmai 273 mm diametrli su boru xəttinin 100 paqonmetr qəzalı hissəsi təmir edilib.

Azərbaycan hökuməti ilə Səudiyyə İnkişaf Fondu arasında bağlanılmış kredit sazişinə əsasən, cari ilin iyul ayından Xırdalan şəhərinin su kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsinin icrasına başlanılıb. Dəyəri 108 milyon manat olan bu layihənin icrası ilə 2 il ərzində Xırdalan şəhərinin gələcək perspektivi də nəzərə alınmaqla 168 km uzunluğunda müxtəlif diametrli içməli su xətinin, 108 km uzunluğunda kanalizasiya xəttinin çəkilişi işləri həyata keçiriləcəkdir. Artıq bu günədək 19 km içməli su xətti, 9 km uzunluğunda kanalizasiya xətti çəkilmişdir və işlər hazırda davam etməkdədir.

Bu gün ictimai narahatlıq doğuran məsələlərdən biri də respublika əhalisinin duzla təmin edilməsində böyük rolu olan Masazır kəndi ərazisindəki duz gölünə çirkab sularının axıdılması təşkil edir. Bununla bağlı Abşeron RİH başçısının qaldırdığı məsələnin nəticəsi olaraq, cənab İlham Əliyevin verdiyi tapşırıq əsasında Masazır və Novxanı kəndlərinin ərazisindən keçəcək 13,7 km uzunluğunda kanalizasiya xəttinin çəkilişi işlərinə başlanılıb və hazırda 2,5 km uzunluğunda xətt artıq çəkilmiş və işlər sürətlə davam etdirilir.

Eyni zamanda, cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə rayonun Novxanı, Mehdiabad, Digah, Pirəkəşkül və Qobustan yaşayış məntəqələrində su kanalizasiya sistemlərinin çəkilməsi ilə bağlı başlanılmış işlərin davam olunması üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə vəsait ayrılıb. Bununla bağlı artıq Digah qəsəbəsi, Qobustan və Pirəkəşkül kəndlərində işlərə başlanılıb.

Rayon sukanal idarəsi tərəfindən rayon icra hakimiyyətinin daxili imkanları və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilmiş materiallar hesabına Xırdalan şəhərində və Ceyranbatan qəsəbəsində 16 çoxmənzilli yaşayış binasında zirzəmilərin kanalizasiya xətləri tamamilə yenilənib. Hazırda Bağlar sukanal idarəsi tərəfindən Mehdiabad qəsəbəsindəki çoxmənzilli yaşayış binalarının zirzəmilərinin əsaslı təmir işləri həyata keçirilir.

Digər çıxışlarda da rayonun nailiyyətlərindən və qarşıda duran vəzifələrdən söz açıldı. Çıxış edənlər bildirdilər ki, Prezident İlham Əliyevin diqqət və qayğısı, rayonda həyata keçirilən abadlıq-quruculuq işlərinə verdiyi yüksək qiymət daha yaxşı işləməyə, Abşeron rayonunun ölkənin ən abad və ekoloji cəhətdən təmiz bir rayonu olaraq qalması üçün bütün qüvvə və bacarıqları səfərbər etməyə ruhlandırır. Əminliklə bəyan olundu ki, abşeronlular dövlət başçısının həyata keçirdiyi siyasətin uğurlarından bəhrələnərək bundan sonra da öz əməkləri və əzmkarlıqları ilə ölkəmizin ümumi tərəqqisinə layiqli töhfə verəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***












